# Aksiya ərazisindən keçərək Laçın istiqamətinə gedən BQXK-yə məxsus avtomobillər geri qayıdıb



**Laçın-Xankəndi yolunda təşkil olunan dinc aksiyanın iştirakçıları ərazidən humanitar məqsədlər üçün istifadəyə növbəti dəfə şərait yaradıblar.**

AZƏRTAC xəbər verir ki, dünən səhər saatlarında Xankəndidən Laçın istiqamətinə hərəkət edən Beynəlxalq Qırmızı Xaç Komitəsinə (BQXK) məxsus 6 avtomobil bir müddətdən sonra əks tərəfə geri qayıdıb.

Bu, bir daha onu göstərir ki, aksiyanın təşkil olunduğu ərazi humanitar məqsədli maşınların keçidi üçün tam açıqdır. Qarabağda ekoloji istismara qarşı ötən il dekabr ayının 12-dən başlayan aksiya 65 gündür davam edir.



Azərbaycan.- 2023.- 14 fevral.- S.10.